Bu, feil bölməsinə aid qapalı tipli test tapşırığıdır. Burada cümləni verilmiş feillərdən uyğun olanlarla tamamlamaq tələb olunur. Cümlədə tamamlıqdan sonra "to" hissəciyi ilə istifadə olunan "make" feili var, bu zaman nəzərə almaq lazımdır ki, cümlənin xəbəri özündən sonra feil gələrsə, "to" hissəciyi tələb edir. Verilmiş feillər içərisindən "advised", "expected", "told" feilləri bu tələbəi ödəyir. Beləliklə, test tapşırığının doğru cavabı A bəndində verilmişdir.

**20.** Choose the correct variant.
1. a few bunches of flowers
2. a few loaf of bread
3. many furniture
4. many sacks of flour

A) 1, 4 B) 1, 2, 3 C) 2, 4
D) 2, 3, 4 E) 1, 3

***Tapşırığın izahı:*** *3.1.1. Söz və söz birləşmələrini morfoloji xüsusiyyətlərinə görə qruplaşdırır. (7-ci sinif)*
Bu, isim bölməsinə aid qapalı tipli test tapşırığıdır. Burada sayılan və sayılmayan isimlərin olduğu söz birləşmələri verilmişdir. Bu birləşmələrdən "a few bunches of flowers", "many sacks of flour" doğrudur, buna görə də test tapşırığının doğru cavabı A bəndidir.

**21.** Choose the correct pronoun.
*This exercise is very easy. Do it ... .*
A) yourself B) themselves C) herself
D) myself E) himself

***Tapşırığın izahı:*** *3.1.1. Söz və söz birləşmələrini morfoloji xüsusiyyətlərinə görə qruplaşdırır. (7-ci sinif)*
Bu, əvəzlik bölməsinə aid qapalı tipli test tapşırığıdır. Burada 2 cümlə verilmişdir, I cümləyə əsasən II cümlədəki əvəzliyi seçmək tələb olunur. İkinci cümlə əmr cümləsidir, burada cümlənin sonunda qayıdış əvəzliyinin işlənməsi lazımdır. Test tapşırığının doğru cavabı A bəndində verilmişdir.

**22.** Choose the correct interrogative sentences.
1. Who informed you about Jill's arrival?
2. Whom did you inform about Jill's arrival?
3. Whom you informed about Jill's arrival?
4. Who did inform you about Jill's arrival?

A) 3, 4 B) 1, 2 C) 2, 3, 4
D) 1, 4 E) 1, 2, 3

***Tapşırığın izahı:*** *3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir. (8-ci sinif)*
Bu, sual cümlələri bölməsinə aid qapalı tipli test tapşırığıdır. Burada sual cümləsində söz ardıcıllığı qorunan, dil qaydalarına əməl olunan cümlələri seçmək tələb olunur. Bu səbəbdən verilmiş sual cümlələrindən "**Who informed you about Jill's arrival?**" və "**Whom did you inform about Jill's arrival?**" doğrudur. Beləliklə, test tapşırığının doğru cavabı B bəndində verilmişdir.

***Read the passage and answer questions 23 – 30.***

1. The Kalash are a small ethnic and religious minority with many features that distinguish them from the surrounding population. Kalash people have special types of clothes. Kalash women usually wear long and black clothes. Men wear the Pakistani style trousers with a piece of clothing like a long shirt. But their children wear smaller versions of adult clothing.

2. The people of the Kalash live in the Chitral district of Pakistan. They believe that they are the descendants of Alexander the Great's soldiers who resided in the area 23 centuries ago. The skin of many Kalash people is light and they have blue or green eyes. These features prove that they are indeed the descendants of Greek soldiers as said in an old Kalash legend. The Kalash try to keep their ancient customs and traditions alive. They believe in many gods and nature plays an important role in their culture like the ancient Greeks.

3. The Kalash celebrate three interesting festivals in a year. In these festivals, people dance to the sound of drums. Because of these festivals, the region is a famous tourist attraction. However, the tourists negatively influence the daily lives of Kalash people. The Pakistani government is worried about this situation.

**23.** Choose the correct answer to the question according to the passage.
*What are the similarities of the Kalash with the ancient Greeks?*
1. They trust in a lot of gods.
2. The clothes of the Kalash are the same as the Greeks.
3. Nature is significant for the Kalash culture.
4. The Kalash celebrate the old festivals of the Greeks.

A) 2, 4  B) 2, 3  C) 1, 4  D) 1, 2  E) 1, 3

***Tapşırığın izahı:*** *3.1.4. Mətndəki fakt və hadisələri təhlil edir. (10-cu sinif)*
Bu, qapalı tipli test tapşırığıdır. Oxu mətninə əsasən verilmiş suala düzgün cavabı seçmək tələb olunur. Burada Kalaş etnik azlığına aid insanlarla qədim yunanlılar arasındakı oxşarlıqların nələr olduğu soruşulur. Mətnə əsasən verilmiş fikirlərdən yalnız "**They trust in a lot of gods**." və "**Nature is significant for the Kalash culture.**" cümlələri doğrudur. Beləliklə, test tapşırığının doğru cavabı E bəndində verilmişdir.

**24.** The passage is mainly about ... .
A) an ethnic group in Pakistan
B) the festivals held in Pakistan
C) the special role of nature in daily life
D) the troops of Alexander the Great
E) different customs of the Kalash

***Tapşırığın izahı:*** *3.1.4. Mətndəki əsas fikri müəyyən edir. (7-ci sinif)*
Bu, qapalı tipli test tapşırığıdır. Burada oxu mətninin əsasən nədən bəhs etdiyi soruşulur. Mətn əsasən Kalaş etnik qrupu haqqında olduğu üçün test tapşırığının doğru cavabı A bəndində verildiyi kimidir.

**25.** Choose the correct variant according to the passage.
*As mentioned in an old source, the Kalash ... .*
A) were under the control of Alexander the Great
B) have changed their traditions because of different reasons
C) are the children of Greek soldiers
D) live in the large parts of Pakistan
E) moved from Greece to Pakistan

***Tapşırığın izahı:*** *3.1.4. Mətndəki əsas fakt və hadisələri seçir, qruplaşdırır. (8-ci sinif)*
Bu, qapalı tipli test tapşırığıdır. Burada oxu mətninə əsasən verilən cümləni tamamlamaq tələb olunur. Mətndə bu cümlə **"These features prove that they are indeed the descendants of Greek soldiers as said in an old Kalash legend."** kimi öz əksini tapmışdır. Bu səbəbdən də test tapşırığının doğru cavabı C bəndində olduğu kimidir.

**26.** Which statement is true according to the passage?
A) The Kalash use different musical instruments in festivals.
B) The Kalash are the descendants of Alexander the Great.
C) Alexander the Great resided in the area less than 20 centuries ago.
D) The Kalash people celebrate three festivals every month.
E) The Kalash people try to preserve their traditions.

***Tapşırığın izahı:*** *3.1.4. Mətndəki fakt və hadisələri təhlil edir. (10-cu sinif)*
Bu, qapalı tipli test tapşırığıdır. Burada oxu mətninə əsasən doğru fikri seçmək tələb olunur. Verilmiş fikirlərdən yalnız **"The Kalash people try to preserve their traditions."** mətnə əsasən doğrudur. Bu səbəbdən test tapşırığının doğru cavabı E bəndidir.

***Fulfil the tasks number 27 – 30 in the "Answer sheets".***

**27.** Complete the sentence by using (a) different word(s) and structure according to the passage.
*The daily lives of Kalash people ... .*

***Tapşırığın izahı:*** *4.1.1. Verilmiş sözləri məna və qrammatik cəhətdən əlaqələndirərək cümlələr qurur. (5-ci sinif)*
*4.1.3. Sözləri orfoqrafiya qaydalarına uyğun yazır. (6-cı sinif)*
Bu, cavabı yazı ilə ifadə olunan test tapşırığıdır. Burada verilmiş cümləni mətnə

əsasən struktur və söz dəyişikliyi etməklə tamamlamaq tələb olunur. Test tapşırığının müvafiq dəyişikliklər etməklə cavabı **"are affected by visitors coming there"** kimidir.

**28.** Write an answer to the question by using (a) different word(s) and sentence structure according to the passage.
*What do Kalash children wear?*

***Tapşırığın izahı:*** *3.1.4. Mətndəki fakt və hadisələri təhlil edir. (10-cu sinif)*
*4.1.1. Verilmiş sözləri məna və qrammatik cəhətdən əlaqələndirərək cümlələr qurur. (5-ci sinif)*
Bu cavabı yazı ilə ifadə olunan test tapşırığıdır, burada verilən suala mətnə əsasən struktur və söz dəyişikliyi etməklə cavab yazmaq tələb olunur. Mətnə əsasən müvafiq dəyişikliklər etməklə sualın cavabı **"the tiny variants of adult clothes are put on by the children"** kimidir.

**29.** Which word from paragraph 1 best fits to the following definition "*to recognize the difference between two people or things*"?

***Tapşırığın izahı:*** *3.1.1. Mətndəki yeni ifadə və terminlərin mənasını müəyyənləşdirir. (10-cu sinif)*
Bu, cavabı yazı ilə ifadə olunan test tapşırığıdır. Burada izahı verilən sözü I paraqrafdan seçib yazmaq tələb olunur. İzahı verilmiş söz **"to distinguish"**dir.

**30.** Write the opposite meaning of the word "*boring*" from paragraph 3.

***Tapşırığın izahı:*** *3.1.1. Mətndəki yeni ifadə və terminlərin mənasını müəyyənləşdirir. (10-cu sinif)*
Bu, cavabı yazı ilə ifadə olunan test tapşrıığıdır. Burada verilmiş sözün III paraqrafdan əks mənasını tapıb yazmaq tələb olunur. "Boring" sözünün həmin paraqrafda verilən əks mənası **"interesting"**dir.

## Azərbaycan dili

**31.** Hansı cümlələr feili xəbərlidir?
1. Novruzu konkret bir dinlə, etiqadla bağlamaq düzgün deyil.
2. Alınan məlumatların bir-birinə uyğun olmadığı aydınlaşdırıldı.
3. Məqsədimiz xalqın mədəniyyətini və ədəbiyyatını daha çox təbliğ etməkdir.
4. Havalar istiləşdikcə ətraf da yaşıllaşırdı.
5. Əlimdəki kitab Vətən barəsindədir.
6. Vətən səni gözləyir, oğul.

A) 1, 3, 6 B) 4, 5, 6 C) 2, 4, 6
D) 2, 3, 4 E) 1, 3, 5

***Mövzu:*** Xəbər. İsmi və feili xəbər
***Sinif:*** 6
***Standart:*** 4.1.1. Cümlənin qrammatik əsasını müəyyənləşdirir; 4.1.2. Sözün qrammatik mənasını kontekstə uyğun izah edir.
***İzah:*** *Novruzu konkret bir dinlə, etiqadla bağlamaq düzgün deyil* cümləsinin xəbəri sifətlə; *Məqsədimiz xalqın mədəniyyətini və ədəbiyyatını daha çox təbliğ etməkdir* cümləsinin xəbəri məsdər tərkibi ilə; *Əlimdəki kitab Vətən barəsindədir* cümləsinin xəbəri ismi birləşmə ilə; *Alınan məlumatların bir-birinə uyğun olmadığı aydınlaşdırıldı, Havalar istiləşdikcə ətraf da yaşıllaşırdı* və *Vətən səni gözləyir, oğul* cümlələrinin xəbəri feillə ifadə olunmuşdur.
***Düzgün cavab:*** 2, 4, 6

**32.** Klasteri tamamlaya bilən fikirlərdir:

*İdarə işçi axtarır* cümləsindəki ilk iki söz

1. ismin adlıq halındadır.
2. bir-biri ilə tabelilik əlaqəsindədir.
3. müstəqil cümlə üzvüdür.
4. ismin fərqli halındadır.
5. biri baş, digəri ikinci dərəcəli üzvdür.

A) 1, 2, 4 B) 1, 2, 5 C) 3, 4, 5
D) 1, 3, 4 E) 2, 3, 5

***Mövzu:*** Mövzulararası əlaqə
***Sinif:*** 5; 8
***Standart:*** 4.1.2. Sözün səs tərkibini, semantik xüsusiyyətlərini, tərkibini, yaranma üsullarını və qrammatik mənasını (ad, əlamət, hərəkət bildirməsini) izah edir; 4.1.2. Söz və söz birləşmələrinin sintaktik vəzifəsini müəyyən edir.
***İzah:*** *İdarə işçi axtarır* cümləsində *idarə* adlıq, *işçi* təsirlik haldadır. İlk söz mübtəda, digəri tamamlıqdır. İsimlər bir-biri ilə tabelilik əlaqəsində (mübtəda və tamamlıq bir-biri ilə tabelilik əlaqəsində olmur) deyil. Biri baş, digəri ikinci dərəcəli üzvdür.
***Düzgün cavab:***3, 4, 5

**33.** Hansı sözlərin yazılışında ***səhv*** yol verilmişdir?

1. pasient 2. nəbatat 3. çertyoj
4. sırqa 5. ülvüyyət 6. labirint

A) 2, 3, 6 B) 1, 5, 6 C) 1, 4, 5
D) 3, 4, 5 E) 1, 2, 6

***Mövzu:*** Orfoqrafiya
***Sinif:*** 5; 6; 7
***Standart:*** 4.1.4. Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına əməl edir; 4.1.4. Əsas nitq hissələrinin yazılışı ilə bağlı qaydalara əməl edir; 4.1.4. Nitq hissələrinin yazılışı ilə bağlı qaydalara əməl edir.
***İzah:*** *Nəbatat, çertyoj, labirint* sözlərinin yazılışında səhvə yol verilməmişdir. *Pasient, sırqa, ülvüyyət* sözlərinin yazılışında səhvə yol verilmişdir. Bu sözlər *pasiyent, sırğa, ülviyyət* kimi yazılmalıdır.
***Düzgün cavab:***1, 4, 5

**34.** Tərkibinə görə təhlil baxımından biri digərlərindən fərqlənir:

A) çoxaltdır B) solğunlaşıb C) çağırışçılar
D) yaşandı E) qocaldır

***Mövzu:*** Sözün tərkibinə görə təhlili
***Sinif:*** 5
***Standart:*** 4.1.2. Sözün səs tərkibini, semantik xüsusiyyətlərini, tərkibini, yaranma üsullarını və qrammatik mənasını (ad, əlamət, hərəkət bildirməsini) izah edir.
***İzah:*** *Solğunlaşıb, çağırışçılar, yaşandı, qocaldır* sözləri kök, 2 leksik, 1 qrammatik şəkilçidən ibarətdir. *Çoxaltdır* sözü isə kök (çox), 3 leksik (-al, -t, -dır) şəkilçidən ibarətdir.
***Düzgün cavab:*** çoxaltdır

**35.** *Kiçik bacısını – Səliməni gəzməyə aparmışdı* cümləsində əlavə hansı cümlə üzvünə aiddir?

A) xəbər B) tamamlıq C) zərflik
D) təyin E) mübtəda

***Mövzu:*** Cümlə üzvünün əlavəsi
***Sinif:*** 8
***Standart:*** 4.1.2. Söz və söz birləşmələrinin sintaktik vəzifəsini müəyyən edir;
***İzah:*** *Kiçik bacısını – Səliməni gəzməyə aparmışdı* cümləsində tamamlıq (bacısını) əlavəli (Səliməni) işlənmişdir.
***Düzgün cavab:*** tamamlıq

**36.** "*Oxudun*" sözünün quruluşca sadə olduğunu nəzərə alaraq doğru fikirləri müəyyən edin.
1. Feilin xəbər şəklində işlənib.
2. İcbar növdədir.
3. Vurğusu 3-cü hecadadır.
4. *Oxutmaq, oxuyucu, oxudulan* sözləri ilə eyniköklüdür.
5. Feilin əmr şəklində işlənib.

A) 3, 5 B) 1, 3 C) 1, 4 D) 2, 5 E) 2, 4

***Mövzu:*** Mövzulararası əlaqə
***Sinif:*** 5; 7
***Standart:*** 4.1.2. Sözün səs tərkibini, semantik xüsusiyyətlərini, tərkibini, yaranma üsullarını və qrammatik mənasını (ad, əlamət, hərəkət bildirməsini) izah edir; 4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir.
***İzah:****Oxudun* sözünün quruluşca sadə olduğunu nəzərə alsaq, -du keçmiş zaman, -n şəxs şəkilçisidir. Feil xəbər şəklindədir. Vurğusu 3-cü hecadadır.
***Düzgün cavab:***1, 3

Telegram:BuraxılışTeam @buraxilisteam

**37.** Nümunə ilə bağlı ***səhv*** fikirləri müəyyən edin.

*Odur, bax, günəşin rənginə bir bax,*
*O günəş gəncliyin timsalıdır, bil,*
*Gəncliyin günəşi saralan deyil,*
*Əzizim, parlasın ömrün günəştək,*
*Nə can yanğısı gör, nə iztirab çək!*

1. 4-cü misradan başqa bütün misralarda iki söz birləşməsi var.
2. Nümunədə həm ismi, həm də feili birləşmə işlənmişdir.
3. Yalnız bir misrada iki ismi birləşmə işlənmişdir.
4. İsmi birləşmələrdən birinin asılı tərəfi əvəzlikdir.
5. İsmi birləşmələrin hamısı eyni cümlə üzvüdür.

A) 3, 4, 5 B) 1, 4, 5 C) 1, 2, 3
D) 1, 2, 5 E) 2, 3, 4

***Mövzu:*** Söz birləşmələri
***Sinif:*** 8
***Standart:*** 4.1.2. Söz və söz birləşmələrinin sintaktik vəzifəsini müəyyən edir.
***İzah:*** Nümunənin 4-cü misrasından başqa, digər misralarında söz birləşməsi işlənmişdir. Yalnız 2-ci misrada iki söz birləşməsi vardır *(o günəş*, *gəncliyin timsalı)*. 1-ci misrada *günəşin rəngi*, 3-cü misrada *gəncliyin günəşi*, 5-ci misrada *can yanğısı* söz birləşmələridir. Nümunədə feili birləşmə işlənməyib. İsmi birləşmələrdən birinin *(o günəş)* asılı tərəfi əvəzlikdir. İsmi birləşmələr müxtəlif cümlə üzvləridir.
***Düzgün cavab:*** 1, 2, 5

**38.** "*Qonaqların hamısı muğam ifa edən müğənnini diqqətlə dinləyirdilər*" cümləsinə əsasən cədvəldəki uyğun fikirləri müəyyən edin.

| *Doğrudur* | *Yanlışdır* |
|---|---|
| 1. Xəbər indiki zamanda olan sadə feillə ifadə olunub. | 3. Təyin feili sifətlə ifadə olunub. |
| 2. Tamamlıqlar sadə isimlərlə ifadə olunub. | 4. Mübtəda və xəbər arasında kəmiyyətə görə uzlaşma gözlənilməyib. |

A) 1, 2 B) 1, 4 C) 1, 3 D) 2, 4 E) 2, 3

***Mövzu:*** Cümlə üzvləri
***Sinif:*** 8
***Standart:*** 4.1.2. Söz və söz birləşmələrinin sintaktik vəzifəsini müəyyən edir.
***İzah:*** *Qonaqların hamısı muğam ifa edən müğənnini diqqətlə dinləyirdilər* cümləsidə *qonaqların hamısı* mübtəda, *dinləyirdilər* sadə feillə ifadə olunmuş xəbər, *muğam ifa edən* feili sifət tərkibi ilə ifadə olunmuş təyin, *müğənnini* sadə isimlə ifadə olunmuş tamamlıq, *diqqətlə* zərflə ifadə olunmuş zərflikdir. Mübtəda və xəbər arasında kəmiyyətə görə uzlaşma gözlənilməyib.
***Düzgün cavab:***1, 3

**39.** Cümlələrdə fərqləndirilmiş sözləri nəzərə alaraq uyğunluğu müəyyən edin.

1. İnsanı yaşadan **da** ümiddir.
2. İndi gəlirəm **də**, bir az gözlə.

a. Ədatdır.
b. Sözə qoşularaq məna çaları yaradıb.
c. İfadə olunan fikrə münasibət bildirib.
d. Bağlayıcıdır.
e. Fikrin təsirli ifadə olunmasına kömək edib.

A) 1 – a, e; 2 – d B) 1 – a; 2 – c, d
C) 1 – c, d; 2 – b, e D) 1 – b, d; 2 – a
E) 1 – d; 2 – a, e

***Mövzu:*** Köməkçi nitq hissələri
***Sinif:*** 7
***Standart:*** 4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir.
***İzah:*** "İnsanı yaşadan **da** ümiddir" cümləsində fərqləndirilmiş söz bağlayıcı, "İndi gəlirəm **də**, bir az gözlə" cümləsində fərqləndirilmiş söz ədatdır və fikrin təsirli ifadə olunmasına kömək edib.
***Düzgün cavab:*** 1 – d; 2 – a, e

**40.** Hansı cümlədə qeyri-müəyyən miqdar sayı işlənmişdir?

A) Onlar bir qədər gedəndən sonra gözəl seyrəngaha çatdılar.
B) Çoxdan görə bilmədiyi dostu ilə bu gün Cıdır düzündə qarşılaşdı.
C) Uşaqlar divarı bir az rəngləyib istirahət etdilər.
D) Bu məsələni onlarla məsləhətləşmək istədim.
E) Şərq ölkələrinin bir çox həkimləri bitkilərin müalicəvi əhəmiyyətini qeyd etmişlər.

***Mövzu:*** Say
***Sinif:*** 5; 6
***Standart:*** 4.1.2. Sözün səs tərkibini, semantik xüsusiyyətlərini, tərkibini, yaranma üsullarını və qrammatik mənasını (ad, əlamət, hərəkət bildirməsini) izah edir;
4.1.2. Sözün qrammatik mənasını kontekstə uyğun izah edir.
***İzah:*** *Onlar bir qədər gedəndən sonra gözəl seyrəngaha çatdılar; Çoxdan görə bilmədiyi dostu ilə bu gün Cıdır düzündə qarşılaşdı; Uşaqlar divarı bir az rəngləyib istirahət etdilər; Bu məsələni onlarla məsləhətləşmək istədim* cümlələrində say işlənməmişdir.
*Şərq ölkələrinin bir çox həkimləri bitkilərin müalicəvi əhəmiyyətini qeyd etmişlər* cümləsində *bir çox* qeyri-müəyyən miqdar sayıdır.
***Düzgün cavab:*** Şərq ölkələrinin bir çox həkimləri bitkilərin müalicəvi əhəmiyyətini qeyd etmişlər.

***41 – 50 saylı tapşırıqları aşağıdakı mətnə əsasən cavablandırın.***

**Gəlmə**

Buraların gözəl təbiəti, bir tərəfi dəli Kürə, o biri tərəfi uca dağlara gedib çatan düzləri Məmmədi getdikcə bu yerlərə daha çox bağlayırdı. Hər evdə divardan silahla yanaşı, sazın da asıldığını görən Məmməd qəriblik və tənhalıq günlərini unutmaqda idi.

**I** Köhnə adət-ənənələrlə yaşayan Qıraq Kəsəmən camaatı da ona göz qoyurdu. Ədəb-ərkan gözləyən, böyük-kiçik yeri bilən bu gəncdən şikayətləri yox idi. Bununla belə, kənardan gəlmə adama ▲*inanmaq* istəmirdilər. Kənd sakinlərinə görə, belə adamların əsil-nəcabəti, ağıl-kamalının dərin-dayazlığı bilinmir. **II** Burada ■*məskunlaşdığı* vaxtdan ildən artıq keçmişdi. Buna baxmayaraq, "gəlmə" adlandırılması hələ də Məmmədə ağır gəlirdi.

Heç kəsin gözləmədiyi bir təsadüf Məmməd üçün müşkül görünən bu məsələni [1]........ .

Yazın axır ayı idi. Kəndin at ilxıları və camış sürüləri xeyli vaxt idi ki, Kür qırağına köçürülmüşdü. Köç arabaları isə indi-indi Kür sahilinə *tökülürdü*[1]. Kürdən keçmək üçün hamı növbə gözləyirdi.

Yazda həmişə selli-sulu olan dəli Kür bu günlərdə də [2]........ . **Suyun axarı boz dağların dibini *qazıyır*[2], təpələri uçurub göyə fışqırırdı**. Qız-gəlin yarğanın başında dayanaraq Hatəm ağanın bu taydan o taya fınxıra-fınxıra üzən ilxısına tamaşa edirdi. Qaşqa madyan öz qulunu ilə sahilə *çatmağa*[3] çalışırdı. **III** Gülpəri onları gözdən qoymamaq üçün çayın kənarı ilə bir-iki addım irəli getdi. Elə bu məqamda onun ayağı sürüşdü. Müvazinətini itirən qız lal suların qoynuna düşdü.

Qızlar haray-həşir qopardılar. **IV** Hər iki sahildən cavan oğlanlar, qoçaq kişilər özlərini çaya atdılar. Onların arasında Məmməd də vardı. **V** Özünü Kürə vuran adamlar gah suyun altına cumur, gah da suyun üzünə *qalxıb*[4] axarı yoxlayırdılar.

Gülpərinin sağ qalmasına ümid getdikcə azalırdı. Onu axtaranların çoxu ●*naümid* sahilə çıxmışdı. Təkcə Məmməd gözə dəymirdi. Onun da boğulub *batdığını*[5] güman edirdilər. Aman-zaman bir balası olan qız atasının gözləri dolmuşdu, bir yerdən sıxsa, min yerdən tökərdi. Bu zaman xeyli aşağıda Gülpərini sudan çıxarıb sahildə göy otların üstünə qoyan oğlan hamının diqqətini cəlb etdi. Bu, Məmməd idi. Atanın bayaqdan bəri güclə saxladığı göz yaşları selə döndü.

Qıraq Kəsəməndə Məmmədə münasibət dəyişdi. Kəndin cavanlarından onunla oturub-durmaq istəyənlər, ona qardaşlıq etmək arzusunda olanlar çox idi. Yaşlılar isə onu hörmətlə "oğul" deyə çağırırdılar. Vaxt keçdikcə camaat onun yeni bir mərdanəliyinin şahidi olurdu. Məmmədin gəlmə olduğunu daha kimsə xatırlamırdı.

**41.** Əvvəlində Roma rəqəmi yazılmış hansı cümlə mətndən çıxarılsa, cümlələr arasında əlaqə ***pozulmaz***?

A) V B) III C) I D) IV E) II

***Sinif:*** 6

***Standart:*** 3.1.3. Mətnin hissələrini, abzaslarını əlaqələndirir.

***İzah:*** *Özünü Kürə vuran adamlar gah suyun altına cumur, gah da suyun üzünə qalxıb axarı yoxlayırdılar* cümləsi mətndən çıxarılsa, cümlələr arasında əlaqə pozulmaz.

***Düzgün cavab:*** V

**42.** Mətndə üzərində rəqəm yazılmış sözlərin kontekstə görə qarşılığının işləndiyi cümlələri müəyyən edin.

1. Uşaqların səsinə bütün qonşular həyətə gəldilər.
2. Güclü şırnaq torpağı oyub dərin bir deşik yaratmışdı.
3. Bu at beş nəfərin xörəyinə yetişər.
4. Yağış yağdığı üçün kəndin yollarında palçıq dizə çıxmışdı.
5. Qamışlıq o qədər hündürdür ki, adam arasında itir.

A) 1, 4, 5 B) 1, 3, 5 C) 2, 3, 5
D) 1, 2, 4 E) 2, 3, 4

***Sinif:*** 8; 9

***Standart:*** 2.1.1. Tanış olmadığı söz və ifadələrin mənasını müvafiq qarşılığını tapmaqla şərh edir; 2.1.1. Tanış olmayan söz və ifadələrin kontekstə uyğun mənasını şərh edir.

***İzah:*** *Uşaqların səsinə bütün qonşular həyətə gəldilər* cümləsində *gəldilər* sözü kontekstə görə *tökülmək*; *Güclü şırnaq torpağı oyub dərin bir deşik yaratmışdı* cümləsində *oyub* sözü kontekstə görə *qazımaq*; *Yağış yağdığı üçün kəndin yollarında palçıq dizə çıxmışdı* cümləsində *çıxmışdı* sözü kontekstə görə *qalxmaq* mənasında işlənmişdir. *Bu at beş nəfərin xörəyinə yetişər* cümləsində *yetişər* sözü *çatmaq* mənasını versə də, kontekstə görə həmin sözün qarşılığı ola bilməz. *Qamışlıq o qədər hündürdür ki, adam arasında itir* cümləsində *itir* sözü də kontekstə görə *batmaq* sözü ilə qarşılıq yarada bilmir.

***Düzgün cavab:*** 1, 2, 4

**43.** Mətnə əsasən cədvəldəki uyğun fikirləri müəyyən edin.

| *Doğrudur* | *Yanlışdır* | *Ehtimaldır* |
|---|---|---|
| 1. Məmməd kənd camaatının etibarını qazanmaq üçün Gülpərini xilas edir.<br>2. Kənd sakinləri Kür qırağına sürülərdən daha gec gəldilər. | 3. Qıraq Kəsəmən sakinləri heç bir halda gəlmə adama etibar etmədilər.<br>4. Gülpərini xilas etməyə çalışanların əksəriyyəti son ana qədər axtarışı davam etdirdi. | 5. Məmməd kənd sakinlərinin ilk vaxtlar ona olan münasibətinə önəm vermirdi.<br>6. Hatəm ağa kəndin ən böyük ilxısına sahib idi. |

A) 1, 4, 5 B) 2, 3, 4, 6 C) 2, 4, 5, 6
D) 1, 2, 3, 6 E) 1, 3, 5

***Sinif:*** 6

***Standart:*** 2.2.1. Mətndəki əsas fikri nəzərə çarpdırmaq məqsədi ilə mühüm məqamları vurğulayır.

***İzah:*** *Kənd sakinləri Kür qırağına sürülərdən daha gec gəldilər* fikri doğru; *Məmməd kənd camaatının etibarını qazanmaq üçün Gülpərini xilas edir*, *Qıraq Kəsəmən sakinləri heç bir halda gəlmə adama etibar etmədilər*, *Gülpərini xilas etməyə çalışanların əksəriyyəti son ana qədər axtarışı davam etdirdi* və *Məmməd kənd sakinlərinin ilk vaxtlar ona olan münasibətinə önəm vermirdi* fikirləri yanlış; *Hatəm ağa kəndin ən böyük ilxısına sahib idi* fikri isə ehtimaldır.

***Düzgün cavab:*** 2, 3, 4, 6

Telegram:Buraxılış_Team @buraxilistean

**44.** Mətnin tərkib hissələrini genişləndirə bilən nümunələrə əsasən uyğunluğu müəyyən edin.

1. Giriş
2. Əsas hissə
3. Nəticə

a. Bilmək olmur ki, bu gün, ya sabah onun izinə düşüb ardınca kim gələcək.
b. Onun əvvəldən də musiqiyə və sözə bağlı şair qəlbi öz istəyini bu diyarda tapmışdı.
c. Qara əcəlin onun yeganə yurdçusuna mərhəmət göstərəcəyinə inanmaq çətin idi.
d. Arabir bədxahlar tapılsa da, onların ağzını yumanlar daha çox idi.
e. Ceyran çölünün otu bozarsa da, hələ yataq yerləri, qışlaqlar xam idi.

A) 1 – a, e; 2 – d; 3 – b, c B) 1 – b; 2 – a, c; 3 – d, e
C) 1 – d, e; 2 – a, c; 3 – b D) 1 – a, b; 2 – c, e; 3 – d
E) 1 – b, e; 2 – d; 3 – a, c

***Sinif:*** 9
***Standart:*** 2.2.2. Tərkib hissələri arasında əlaqəni gözləməklə mətni genişləndirir.
***İzah:*** *Bilmək olmur ki, bu gün, ya sabah onun izinə düşüb ardınca kim gələcək* və *Onun əvvəldən də musiqiyə və sözə bağlı şair qəlbi öz istəyini bu diyarda tapmışdı* nümunələri ilə mətnin giriş hissəsini; *Qara əcəlin onun yeganə yurdçusuna mərhəmət göstərəcəyinə inanmaq çətin idi* və *Ceyran çölünün otu bozarsa da, hələ yataq yerləri, qışlaqlar xam idi* nümunələri ilə mətnin əsas hissəsini; *Arabir bədxahlar tapılsa da, onların ağzını yumanlar daha çox idi* nümunəsi ilə mətnin nəticə hissəsini genşləndirmək olar.
***Düzgün cavab:*** 1 – a, b; 2 – c, e; 3 – d

**45.** Hansı fikirlər mətnin məzmunu ilə ***səsləşmir***?

1. Ehtiyat olmayan yerdə heç bir hikmət kömək edə bilməz.
2. Beynimizin qəbul edə bilməsi üçün əvvəlcə gözümüzün görməyi gərəkdir.
3. Əlindən iş gəlməyənin başına iş gələr.
4. Yalnız əməllərinlə özün haqqında fikirləri dəyişə bilərsən.
5. Məqsədinə çatmaq üçün batan tikanı gül kimi qoxlaya bilsən, qazanarsan.

A) 1, 3, 4 B) 2, 4, 5 C) 1, 2, 4
D) 2, 3, 5 E) 1, 3, 5

***Sinif:*** 5
***Standart:*** 2.2.3. Mətndəki əsas fikri müəyyənləşdirir.
***İzah:*** *Ehtiyat olmayan yerdə heç bir hikmət kömək edə bilməz, Əlindən iş gəlməyənin başına iş gələr, Məqsədinə çatmaq üçün batan tikanı gül kimi qoxlaya bilsən, qazanarsan* fikirləri mətnlə səsləşmir.
*Beynimizin qəbul edə bilməsi üçün əvvəlcə gözümüzün görməyi gərəkdir* və *Yalnız əməllərinlə özün haqqında fikirləri dəyişə bilərsən* fikirləri mətnlə səsləşir.
***Düzgün cavab:***1, 3, 5

***46 – 50 saylı tapşırıqları "Cavab vərəqləri"ndə cavablandırın.***

**46.** Mətndə altından xətt çəkilmiş ifadələrə əsasən cədvəli doldurun.

***Sinif:*** 10
***Standart:*** 2.1.1. Mətndəki söz və ifadələri üslubi xüsusiyyətinə görə fərqləndirir.
***Ehtimal olunan cavablar:***

| ***İfadə*** | ***İfadənin mətndəki funksiyası (poetik, informativ və ya terminoloji)*** | ***İfadənin digər funksiyası (poetik, informativ və ya terminoloji)*** | ***Digər funksiyada cümlədə işlədilməsi*** |
|---|---|---|---|
| bağlayır | poetik | informativ | Uşaq ipi ağaca bağlayır. |
| silah | informativ | poetik<br><br>terminoloji | Şairin silahı onun qələmidir.<br><br>Müharibədə kimyəvi silahdan istifadə edilib |
| üzən | informativ | poetik | O, xəyalların qoynunda üzür. |

**47.** Mətndə əvvəlində işarə qoyulmuş ifadələri mətnin üslubuna uyğun obrazlı ifadələrlə əvəz edib yazın.
***Sinif:*** 10; 11
***Standart:*** 2.1.2. Söz və ifadələrə əsasən oxuduğu mətnin üslubunu müəyyənləşdirir; 3.1.3. Mətni üslubi və struktur cəhətdən təkmilləşdirir.
***Ehtimal olunan cavablar:***
▲ *bel bağlamaq; ürək qızdırmaq* və s.
■ *yurd salmaq; məskən salmaq* və s.
● *ümidini itirərək, ümidini kəsib, ruhdan düşüb, əlini üzüb, çarəsiz halda* və s.

**48.** Mətnə əsasən təbliğ və tənqid edilə bilən xüsusiyyətləri müəyyən edib yazın və fikirlərinizi əsaslandırın.
***Sinif:*** 9
***Standart:*** 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.
***Ehtimal olunan cavablar:***
***Təbliğ edilə bilər:*** *qorxmazlıq, xeyirxahlıq, yardımsevərlik və s.*
***Əsaslandırma:*** Hər iki sahildən cavan oğlanlar, qoçaq kişilər özlərini çaya atdılar. Məmməd özünü coşqun sulara vuraraq Gülpərini xilas edir məzmunlu və s. fikirlər

***Tənqid edilə bilər:*** *etinasızlıq, biganəlik, yadlıq, yabançılıq, mühafizəkarlıq, inamsızlıq və s.*
***Əsaslandırma:*** Köhnə adət-ənənələrlə yaşayan Qıraq Kəsəmən camaatı da ona göz qoyurdu. Ədəb-ərkan gözləyən, böyük-kiçik yeri bilən bu gəncdən şikayətləri yox idi. Bununla belə, kənardan gəlmə adama inanmaq istəmirdilər. Kənd sakinlərinə görə, belə adamların əsil-nəcabəti, ağıl-kamalının dərin-dayazlığı bilinmir.

**49.** Mətndə nöqtələrin yerinə məzmuna uyğun fikirlər yazmaqla cümlələri tamamlayın.

***Sinif:*** 6**;** 11
***Standart:*** 3.1.3. Mətnin hissələrini, abzaslarını əlaqələndirir; 3.1.3. Mətni üslubi və struktur cəhətdən təkmilləşdirir.
***Ehtimal olunan cavablar:***
1. *öz-özünə həll etdi, yoluna qoydu, kökündən həll etdi və s.*
2. *coşub daşırdı, coşqun idi, tüğyan edirdi, məcrasına sığmırdı, yatağından çıxırdı, qaynayıb daşırdı və s.*

**50.** Mətndə tünd-qara hərflərlə verilmiş cümlədəki fikirlə ziddiyyət yaradan cümləni müəyyən edin və həmin cümləyə əsasən cədvəli tamamlayın.
***Sinif:*** 8; 10
***Standart:*** 2.1.1. Tanış olmayan söz və ifadələrin kontekstə uyğun mənasını şərh edir; 3.1.3. Mətnin üslubu üzərində işləməklə yazıya düzəlişlər edir;.
***Ehtimal olunan cavablar:***

| ***Cümlə*** | ***Cümlədə işlənmiş kontekstə uyğun olmayan ifadə*** | ***Həmin ifadəni əvəz edə bilən doğru ifadə*** |
|---|---|---|
| *Müvazinətini itirən qız lal suların qoynuna düşdü.* | *lal* | *coşqun; coşub daşan: kükrəyən; tüğyan edən* |

***51 – 60 saylı tapşırıqları aşağıdakı mətnə əsasən cavablandırın.***

**Gələcək nəsilləri necə qoruya bilərik?**

**I** 1949-cu ildə – Naqasakiyə nüvə silahı atılandan 4 il sonra Nobel mükafatı mərasimində yazıçı Uilyam Folkner insanlığa zidd bu hərəkətə etiraz etdi və bəşəriyyətin sənətlə nicat tapacağını bəyan etdi. Böyük yazar Con Stounberq də Nobel çıxışında sənətin insanlar arasında mənəvi körpü olacağını söylədi.

**II** Bəs uzaq gələcəkdəki bəşəriyyəti də sənətlə xilas etmək mümkündürmü?

**III** Müasir dövrdə 32 ölkədə 440-a qədər nüvə mərkəzi fəaliyyət göstərir. Buradakı tullantıların 96-98 faizi təkrar istifadə olunur. Təxminən 2 faizi isə gələcək üçün təhlükəlidir. Amerikanın Texas ştatının bir neçə kilometrliyində VİP adlı tullantı izolyasiya müəssisəsi var. Buradakı duz yataqlarında radioaktiv tullantılar yerin 600-700 metr dərinliyinə *gömülür*[1]. 250 milyon il stabil olduğu güman edilən bu anbarlar 2035-ci ilə qədər tullantılarla dolacaq. Həmin vaxt açılmış quyular partlayıcılar vasitəsilə daha da çökdürüləcək və planetimiz tullantıları bir növ udacaq. Təbii şəraitin nəticəsi olaraq çökmüş tullantıların üzərindəki yarıqlara 75 il ərzində duz *sızacaq*[2] və bu yarıqları tam qapadacaq. Bəs uzaq gələcəkdəki nəsillərə belə ərazilərin təhlükəli olduğunu necə anlada bilərik? İndiki təhlükə simvolları, hərflər, dillər min illər sonra anlaşılacaqmı?

**IV** 250 min il əvvəl biz Homo Sapiens olaraq yeni-yeni tarix səhnəsinə çıxırdıq. 250 min il bundan sonra isə yadplanetlilər dünyaya gələ, yaxud insanlar planetlərarası mədəniyyətə *çata bilərlər*[3]. Hər bir halda dillər, mədəniyyətlər, fikirlər tamamilə dəyişəcək.

**V** Svastika işarəsi qədim dinlərdə həyat rəmzi *sayılırdı*[4], sonralar alman faşistlərinin rəmzi nişanına çevrildi. Qədim yazılar, dillər bu gün anlaşıqlı deyil. Müasir sivilizasiya qədim adətlərlə üst-üstə düşməyə bilər. Təhlükə haqqında xəbərdarlığı sözlər, rəqəmlər, rəsm əsərləri vasitəsilə anlatmaq təklifləri olsa da, hər birinin qüsurlu cəhəti var.

**VI** Bir başqa təklif də var: Stounberq və Folknerin bəhs etdiyi sənət vasitəsilə. Təklif edilən bir forma tikanvari, sivri uclu heykəllərdir. Belə heykəllər insanda qorxu, sıxıntı, təhlükə hissləri *yaradır*[5]. Nüvə məkanlarını tonlarla ağırlıqda, metrlərlə hündürlükdə belə heykəllərlə doldursaq, bəlkə də, gələcək nəsilləri xəbərdar edib təhlükədən uzaqlaşdıra bilərik.

**VII** Gündəlik problemlərlə qarşılaşarkən bundan 100 min il sonrakı gələcəyi düşünmək asan deyil. Ancaq bu gün 25 deyil, 80 il yaşaya bildiyimizə görə atalarımıza, onların doğru addımlarına borcluyuq. Əgər biz də gələcək nəsillərə yaxşı əcdad olmaq istəyiriksə, sabahımızı bu gündən düşünməliyik.

**51.** Hansı fikirlərin yeri dəyişilsə, cədvəldəki ***uyğunsuzluq*** aradan qalxar?

| *Mətndə bu haqda məlumat var* | *Mətndə bu haqda məlumat yoxdur* |
|---|---|
| 1. Bəzi incəsənət nümunələri vasitəsilə gələcək nəsillərə mesaj ötürmək haqda düşünülür.<br>2. Radiasiya təhlükəsini xəbər verən xüsusi simvollar hazırlanır.<br>3. Simvollar öz əvvəlki mənasını itirə, yeni məna kəsb edə bilər. | 4. Gələcək nəsillər inkişaf etmiş mədəniyyətə malik olarlarsa, radiasiya riskini ölçə bilər və bizim xəbərdarlığımıza ehtiyac qalmaz.<br>5. Uzun zaman kəsiyi – 100 min illər nəsillər arasındakı əlaqəni qıra bilər. |

A) 3 ↔ 5 B) 2 ↔ 4 C) 1 ↔ 4
D) 1 ↔ 5 E) 2 ↔ 5

***Sinif:*** 6
***Standart:*** 2.2.1. Mətndəki əsas fikri nəzərə çarpdırmaq məqsədi ilə mühüm məqamları vurğulayır.
***İzah:*** Mətndə qeyd edilir ki, bəzi incəsənət nümunələri vasitəsilə gələcək nəsillərə mesaj ötürmək haqda düşünülür, simvollar öz əvvəlki mənasını itirə, yeni məna kəsb edə bilər, uzun zaman kəsiyi – 100 min illər nəsillər arasındakı əlaqəni qıra bilər. Mətndə radiasiya təhlükəsini xəbər verən xüsusi simvolların hazırlanması və gələcək nəsillərin inkişaf etmiş mədəniyyətə malik olduqları halda radiasiya riskini ölçə bilməsi və bizim xəbərdarlığımıza ehtiyac qalmaması qeyd edilməmişdir.
Deməli, cədvəldəki 2 və 5-ci fikirlərin yeri dəyişilsə, cədvəldəki uyğunsuzluq aradan qalxar.
***Düzgün cavab:*** 2 ↔ 5

**52.** Mətndə üzərində rəqəm yazılmış sözlərdən biri mətndəki mənasında işlədilmişdir:
A) 2 – Bu məlumat tez bir zamanda mətbuata sızacaq.
B) 1 – Onu tarixə gömmək istəsələr də, bu mümkün olmadı.
C) 3 – Onlar dərəyə enməmiş biz çaya çata bilərik.
D) 4 – Kiçik bacım məktəbdə ən fəal şagird sayılır.
E) 5 – Alimlər yeni elektron maşınlar yaradır.

***Sinif:*** 6
***Standart:*** 2.1.2. Sözləri həqiqi və məcazi mənada işlənməsinə görə fərqləndirir.
***İzah:*** Üzərinə rəqəm yazılmış 1, 2, 3 və 5-ci sözlər verilmiş nümunələrdə mətndəki mənasında işlənmişdir. *Kiçik bacım məktəbdə ən fəal şagird sayılır* cümləsindəki *sayılır* sözü mətndəki mənasında (Svastika işarəsi qədim dinlərdə həyat rəmzi *sayılırdı)* işlənmişdir.
***Düzgün cavab:*** 4 – Kiçik bacım məktəbdə ən fəal şagird sayılır.

**53.** Mətnin tərkib hissələri ilə bağlı doğru fikri müəyyən edin.
A) Nəticə hissəsində mətndəki hadisələrin ümumiləşdirilməsi deyil, bu hadisələrin səbəbi verilmişdir.
B) IV və VII abzasların yeri dəyişdirilsə, mətndəki fikirlərin ardıcıllığı bərpa olunar.
C) Əsas hissəyə "Nüvə məkanlarını gələcək nəsillərdən necə gizlətməli?" başlığını vermək olar.
D) Altından xətt çəkilmiş cümlələr mətndən çıxarılsa, abzaslar arasındakı məzmun ardıcıllığı pozular.
E) Giriş hissədə məntiqi əlaqəni pozan cümlə çıxarılmalıdır.

***Sinif:*** 7; 11
***Standart:*** 2.2.2. Mətnin tərkib hissələri arasındakı əlaqəni müəyyənləşdirir; 3.1.3. Mətni üslubi və struktur cəhətdən təkmilləşdirir.
***İzah:*** Altından xətt çəkilmiş cümlələr (Bəs uzaq gələcəkdəki nəsillərə belə ərazilərin təhlükəli olduğunu necə anlada bilərik? İndiki təhlükə simvolları, hərflər, dillər min illər sonra anlaşılacaqmı?) mətndən çıxarılsa, abzaslar arasındakı məzmun ardıcıllığı pozular.
***Düzgün cavab:*** Altından xətt çəkilmiş cümlələr mətndən çıxarılsa, abzaslar arasındakı məzmun ardıcıllığı pozular.

**54.** Mətnin üslubu üçün səciyyəvi ***olmayan*** xüsusiyyət və ona uyğun nümunəni müəyyən edin.
A) Obrazlı ifadələrdən istifadə; ... sənətin insanlar arasında mənəvi körpü olacağını söylədi.
B) Xalq dilinə yaxınlıq; Təxminən 2 faizi isə gələcək üçün təhlükəlidir.
C) Sözün terminoloji funksiyası; Nobel mükafatı mərasimi.
D) Sözün məcazi mənasından istifadə; Müasir dövrdə 32 ölkədə 440-a qədər nüvə mərkəzi var.
E) Nitqin təbiiliyi, sərbəstliyi; Qədim yazılar, dillər bu gün anlaşıqlı deyil.

***Sinif:*** 10
***Standart:*** 2.1.2. Söz və ifadələrə əsasən oxuduğu mətnin üslubunu müəyyənləşdirir.
***İzah:*** Xalq dilinə yaxınlıq mətnin üslubu üçün səciyyəvi xüsusiyyətdir. Sözün terminoloji funksiyası, sözün məcazi mənasından istifadə və Nitqin təbiiliyi, sərbəstliyi mətnin üslubu üçün səciyyəvi olmayan xüsusiyyət olsa da, nümunələrdə bu xüsusiyyətə uyğun ifadə işlənməmişdir. Obrazlı ifadələrdən istifadə mətnin üslubu üçün səciyyəvi olmayan xüsusiyyətdir və "sənətin insanlar arasında mənəvi körpü olacağını söylədi" bu fikrə uyğun nümunədir.
***Düzgün cavab:*** Obrazlı ifadələrdən istifadə; ... sənətin insanlar arasında mənəvi körpü olacağını söylədi.

**55.** Mətnə əsasən hansı fikirləri əsaslandırmaq mümkündür?
1. 2035-ci ildə nüvə anbarlarının dolması ilə nüvə müəssisələri öz işini dayandıracaq.
2. Naqasakiyə nüvə silahının atılması Nobel mükafatı mərasiminin keçirilməsinə səbəb olmuşdur.
3. Qədim əcdadlarımız 250 min il bundan sonrakı nəsillərə mesaj ötürmüşlər.
4. Nüvə mərkəzlərində tullantıların təkrar istifadəsi təhlükənin miqdarını azaldır.
5. Bir ölkədə bir neçə nüvə mərkəzi fəaliyyət göstərə bilər.

A) 3, 5  B) 2, 4  C) 4, 5  D) 1, 3  E) 1, 2

***Sinif:*** 9
***Standart:*** 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.
***İzah:*** Mətnə əsasən *nüvə mərkəzlərində tullantıların təkrar istifadəsi təhlükənin miqdarını azaldır* və *bir ölkədə bir neçə nüvə mərkəzi fəaliyyət göstərə bilər* fikirlərini əsaslandırmaq mümkündür. *2035-ci ildə nüvə anbarlarının dolması ilə nüvə müəssisələri öz işini dayandıracaq, Naqasakiyə nüvə silahının atılması Nobel mükafatı mərasiminin keçirilməsinə səbəb olmuşdur* və *qədim əcdadlarımız 250 min il bundan sonrakı nəsillərə mesaj ötürmüşlər* fikirlərini isə əsaslandırmaq mümkün deyil.
***Düzgün cavab:*** 4, 5

***56 – 60 saylı tapşırıqları "Cavab vərəqləri"ndə cavablandırın.***

**56.** Mətnə əsasən cədvəli tamamlayın.
***Sinif:*** 7; 9
***Standart:*** 3.1.3. Qurduğu plan əsasında mətnin hissələrini məntiqi cəhətdən əlaqələndirir; 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.

***Ehtimal olunan cavablar:***

| *Abzas* | *Abzasa aid plan bəndi* | *Həmin abzasda ehtimal edilən fikir* |
|---|---|---|
| *IV (V)* | Düşüncələrin dəyişilməsi | *250 min il bundan sonra isə yadplanetlilər dünyaya gələ, yaxud insanlar planetlərarası mədəniyyətə çata bilərlər. (Müasir sivilizasiya qədim adətlərlə üst-üstə düşməyə bilər.)* |
| VI | *Təhlükədən xəbər verən heykəllər* | *Nüvə məkanlarını tonlarla ağırlıqda, metrlərlə hündürlükdə tikanvari, sivri uclu heykəllərlə doldursaq, bəlkə də, gələcək nəsilləri xəbərdar edib təhlükədən uzaqlaşdıra bilərik.* |

**57.** Mətnə əsasən *"Mütəxəssislər radioaktiv tullantıların izolyasiyası haqqında düşünərkən geoloji şəraiti nəzərə almışlar"* fikrini əsaslandırın.

Telegram:Buraxılış Team @buraxilisteam

***Sinif:*** 6; 7
***Standart:*** 2.2.1. Mətndəki əsas fikri nəzərə çarpdırmaq məqsədi ilə mühüm məqamları vurğulayır; 2.2.3. Mətndəki fikrə münasibətini əlavə fakt və məlumatlarla əsaslandırır.
***Ehtimal olunan cavablar:***
*Texas ştatındakı ərazi duz yataqlarından ibarət olduğu üçün radioaktiv tullantıların basdırılmasından sonra yarıqlara duzun sızması və o yarıqların 75 il ərzində tam qapanması mümkündür. Buna görə də tullantıların basdırılması üçün məhz bu ərazi seçilmişdir* məzmunlu və s. fikirlər

**58.** Mətnə əsasən cədvəli tamamlayın.
***Sinif:*** 10
***Standart:*** 2.2.2. Mətnin hissələrini tezislər şəklində ifadə edir.
***Ehtimal olunan cavablar:***

| ***Müddəa*** | ***Müddəanı təsdiq edən faktlar*** |
|---|---|
| *Bəşəriyyəti sənətlə xilas etməyin mümkün olduğunu söyləyən yazıçılar var.* *Bəzi yazıçılar sənətin bəşəriyyət üçün önəmli olduğunu söyləmişlər.* *Bəşəriyyətin sənətlə xilas olunması söylənilir.* | Con Stounberq sənətin insanlar arasında mənəvi körpü olacağını söyləmişdi. |
| | *2. Uilyam Folkner bəşəriyyətin sənətlə nicat tapacağını bəyan edib.* |

**59.** Hansı aforizmlərlə mətndəki fikirləri əlaqələndirmək olar? (√) Seçiminizi əsaslandırın.
1. İnsan gələcəkdə onu nələr gözlədiyini bilsəydi, həyatı dözülməz olardı. ☐
2. Sənət bütün cəmiyyətə xidmət edə bilər. ☐
3. Gələcəyi xilas edəcək yeganə şey bu gündür. ☐
4. Mənim bütün marağım gələcəkdədir, çünki həyatımın qalan hissəsini orada keçirəcəyəm. ☐

***Sinif:*** 8; 9
***Standart:*** 3.1.2. Sitatlardan istifadə etməklə fikir və mülahizələrini qüvvətləndirir; 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.
***Ehtimal olunan cavablar:***
2. Sənət bütün cəmiyyətə xidmət edə bilər. [V]
*Nobel mükafatı mərasimində yazıçılar bəşəriyyətin sənətlə nicat tapacağını, sənətin insanlar arasında mənəvi körpü olacağını söyləmişlər.*
*Gələcək nəsilləri təhlükələrdən qorumaq üçün təklif edilən bir vasitə də sənətdir. Bəziləri düşünürlər ki, müəyyən formalı heykəllərlə gələcək nəsilləri təhlükədən xəbərdar etmək olar* məzmunlu və s. fikirlər

3. Gələcəyi xilas edəcək yeganə şey bu gündür. [V]
*Gələcək nəsilləri bu gün düşünməsək, onlar təhlükə ilə üzləşə bilərlər. Biz bu gün 25 deyil, 80 il yaşaya bildiyimizə görə atalarımıza, onların doğru addımlarına borcluyuq. Əgər biz də gələcək nəsillərə yaxşı əcdad olmaq istəyiriksə, sabahımızı bu gündən düşünməliyik* məzmunlu və s. fikirlər

**60.** Mətndə çərçivədə verilmiş ifadəyə əsasən cədvəli doldurun.

***Sinif:*** 8
***Standart:*** 2.1.1. Tanış olmadığı söz və ifadələrin mənasını müvafiq qarşılığını tapmaqla şərh edir.
***Ehtimal olunan cavablar:***

| ***Sözün mətndənkənar ifadə etdiyi mənası (qarşılığı)*** | ***Həmin mənanın (qarşılığın) cümlə daxilində işlədilməsi*** |
|---|---|
| 1. Kövrəlmək | Uşaq kövrəldi. |
| 2. Girmək (daxil olmaq) | Körpənin qulaqlarına su girmişdi. |
| 3. Yetişmək | Sünbüllər yavaş-yavaş yetişirdi. |
| 4. Həyata keçmək (ödənilmək, yerinə yetirilmək) | Zavodun planı ödənilmişdi. |
| 5. Kökəlmək | Şirniyyat yediyi üçün uşaq tez kökəlirdi. |

# Riyaziyyat

**61.** $3^{x^2-2x}=27$ tənliyinin kiçik kökünü tapın.
A) 1 B) –2 C) –3 D) 0 E) –1

***Mövzu:*** Üstlü tənliklər
***Sinif:*** 10
***Standart:*** 2.3.2.- Üstlü və loqarifmik tənlikləri, bərabərsizlikləri həll edir.
***İzah:*** $3^{x^2-2x}=27$

$$3^{x^2-2x}=3^3$$
$$x^2-2x=3$$
$$x^2-2x-3=0$$
$$x_1=-1;\quad x_2=3$$

***Cavab:*** –1

**62.** $3\sqrt{2}\cdot\sqrt{5}\cdot4\sqrt{10}$ ifadəsinin qiymətini hesablayın.
A) 120 B) 60 C) 100 D) 30 E) 150

***Mövzu:*** Kvadrat kök və onun xassələri
***Sinif:*** 8
***Standart:*** 1.2.3.- Kvadrat kök daxil olan ədədi ifadələri sadələşdirir.
